


# Həyatını skripkasız təsəvvür edə bilməyən Röya

**Musiqi insanı ilahi hisslərlə cilalayan, onun mənəviyyatını saf duyğularla duruldan incəsənət növüdür. Ona vurğunluq qəlblərə rahatlıq gətirər deyib klassiklərimiz. Çünki musiqi bənzəri olmayan bir mənəvi qidadır. Bu yazıda gənc istedad həyatını bircə an da skripkasız təsəvvür edə bilməyən, bütün varlığı ilə qədim müsiqi alətinə vurğun olan beynəlxalq müsabiqələr qalibi Röya Əliyevanı oxucularımıza təqdim edəcəyik.**

## Ən böyük arzusu Azərbaycanı dünyada şərəflə təmsil etməkdir

### Şahmat yarışlarının qalibi

O, Milli Konservatoriyanın tərkibində İncəsənət Gimnaziyasının şagirdidir. 2010-cu ildən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Respublika Şahmat-Dama Klubunda şahmat üzrə təhsil alıb. Hələ 1-ci sinfə gedəndə o, şahmat yarışında 3-cü yeri tutaraq V dərəcə normasını doldurub. 5 yaşından skripka ilə də fərdi qaydada məşğul olan istedadlı yeniyetmə Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin hər il təşkil etdiyi şahmat üzrə şəhər birinciliklərinin və müxtəlif səpkili şahmat yarışlarının iştirakçısı olub. Röya Əliyeva 2012-ci ildə IV, 2013-cü ildə III , 2015-ci ildə II dərəcə normalarını yerinə yetirib. 2018-ci ildə isə I dərəcə normasını yerinə yetirərək "I dərəcəli şahmatçı" diplomuna layiq görülüb.

### Beynəlxalq musiqi müsabiqəsində

Röya Əliyeva ibtidai sinfi uğurla bitirdiyinə görə hər il gimnaziya rəhbərliyi tərəfindən tərifnamə və diplomlara layiq görülüb. 2-ci sinifdən gimnaziyanın Kamera Orkestrinin birinci skripka ifaçısıdır. Gimnaziyanın keçirdiyi müxtəlif konsertlərdə piano və skripka alətlərində ifa edib. Röya həm də vokal və xor qrupunun üzvüdür. 2019-cu ildə Gənclər İttifaqı tərəfindən keçirilən "Arts olimpia" beynəlxalq musiqi müsabiqəsində skripka üzrə solo və ansambla II və III yerləri qazanıb. 2020-ci ildə Rusiyada keçirilən "Yujnaya Rapsodiya" və Təhsil Nazirliyinin təşkil etdiyi "Üç alov" beynəlxalq müsabiqələrində gimnaziyanın vokal qrupu ilə Qran-pri mükafatına layiq görülüb.

### Laureat adını qazanıb

Röya Əliyeva 2020-ci ildə "School-Studio of Baku Music Academy - 40" adı altında professor Tərlan Seyidov tərəfindən təşkil edilən akademik Xalq və Caz Musiqisi ifaçılarının ilk beynəlxalq müsabiqəsində vokal ansamblı ilə III yeri tutaraq laureat adını qazanıb. 2020-ci ildə Rusiyada keçirilən "Art Planet" beynəlxalq incəsənət müsabiqəsində gimnaziyanın vokal ansamblı ilə I yerə layiq görülüb. Yeniyetmə istedad beynəlxalq müsabiqələrlə bərabər Xorvatiyanın, Norveçin və bir sıra xarici dövlətlərin Azərbaycanda fəaliyyət göstərən səfirliklərində keçirilən tədbirlərdə dəfələrlə vokal qrupu ilə iştirak edib.

### Müsabiqələr qalibi

Gənc istedad skripka üzrə onlayn keçirilən bir sıra beynəlxalq musiqi müsabiqələrinin iştirakçısı və qalibi olub. O, Türkiyədə keçirilən beynəlxalq musiqi müsabiqəsində II, Amerikada təşkil olunan "American edition" beynəlxalq musiqi müsabiqəsində I, Böyük Britaniyada, İspaniyada, Finlandiyada və İtaliyada keçirilən "Prometheus" beynəlxalq musiqi müsabiqələrində isə I yerlərə layiq görülüb.

### "Milli suverenlik və Uşaq günü"

Gimnaziyanın ictimai tədbirlərində daim fəallıq nümayiş etdirən istedadlı qız nitq müsabiqələrində də bir çox nailiyyətlər əldə edib. Onun 29 oktyabr 2020-ci il tarixində Türkiyədə "Cümhuriyyət Günü" münasibətilə səsləndirdiyi təbrik nitqi və Çukurova Universiteti nəzdində Dövlət Konservatoriyasının orta məktəb xoru ilə birgə təqdim etdiyi ifa Türkiyə mətbuatında geniş işıqlandırılıb. Röya 2021-ci ilin 23 aprelində Türkiyədə keçirilən "Milli suverenlik və Uşaq günü" ilə əlaqədar bir sıra ölkələrin qatıldığı təbrik videoçarxında etdiyi çıxışa və vokal qrupu ilə ifasına görə isə xüsusi diploma mükafatlandırılıb.

### Skripkanı həyatının mənası sayır

Onunla söhbət zamanı öyrəndim ki, Röya skripkanı həyatının mənası sayır. Ən böyük arzusu isə dünyanın harasında olmasından asılı olmayaraq öz musiqisi ilə xalqını şərəflə təmsil etmək, eyni zamanda insanların qəlbini fəth edə biləcək səsləri yaddaşına yazmaq və insanlarla paylaşmaqdır.

**Sifai SƏFƏROVA**